*UOT 37.01*

***Mətanət Fariz qızı Həsənova***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0003-4998-6598*
*E-mail: metaneth2@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).69-73*

# ÖYRƏNMƏDƏ MÜVƏFFƏQİYYƏTİ MÜƏYYƏN EDƏN DAXİLİ VƏ XARİCİ AMİLLƏR

***Matanat Fariz Hasanova***
*senior lecturer at Azerbaijan Uni5versity of Language,*

# INTERNAL AND EXTERNAL FACTORS THAT DETERMINE SUCCESS IN LEARNING

***Матанат Фариз гызы Гасанова***
*старший преподаватель Азербайджанского Университета Языков*

# ВНУТРЕННИЕ И ВНЕШНИЕ ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ УСПЕХ В ОБУЧЕНИИ

**Xülasə.** Təlim və öyrənmə bütöv fəaliyyətinin elementləri olub, psixoloji xüsusiyyət və keyfiyyət kimi çıxış edir. Öyrənmə təlim fəaliyyətində motiv kimi, başqa fəaliyyətlərdə isə ikinci dərəcəli çıxış edir. Bir çox psixoloqlarının araşdırmalarının göstərdiyi kimi, öyrənmənin strukturu və təbiəti də müvafiq faktların, anlayışların, bacarıq və qabiliyyətlərin aid olduğu bilik və fəaliyyət sahəsi ilə müəyyən edilir. Hesab qaydalarının əzbərlənməsi qrammatikanı əzbərləməkdən başqa müşahidə üsulları, əqli və əməli fəaliyyətlə bağlıdır. Diqqətin tənzimlənməsi öyrənmənin daxili amillərinə aid edilir. İnformasiya axını içərisindən tələb edilən bilik və məlumatları müəyyənləşdirmək, seçmək diqqətin iştirakı olmadan mümkün deyildir. Təlim materiallarının çətinlik dərəcəsi öyrənmənin müvəffəqiyyətinə təsir göstərən xarici amillərdən biridir. Çətinlik dərəcəsi öyrənmənin səmərəliliyinə, sürətinə və düzgünlüyünə təsir edir.
***Açar sözlər:*** *təlim, bilik, bacarıq, diqqət, təfəkkür*

**Abstract.** Training and learning are elements of the whole activity, acting as psychological properties and qualities. Learning acts as a motive in training activities, and in other activities it is secondary. As the research of many psychologists has shown, the structure and nature of learning are determined by the knowledge and field of activity to which the relevant facts, concepts, skills and abilities belong. Memorizing arithmetic rules, in addition to memorizing grammar, is associated with observation methods, mental and practical activity. Attention regulation is attributed to the internal factors of learning. It is impossible to identify and select the required knowledge and information from the information flow without the participation of attention. The degree of difficulty of training materials is one of the external factors affecting the success of learning. The degree of difficulty affects the efficiency, speed and accuracy of learning.
***Keywords:*** *training, knowledge, skill, attention, thinking*

**Аннотация.** Обучение и усвоение знаний являются элементами всей деятельности, выступая в качестве психологических свойств и качеств. В учебной деятельности обучение выступает в качестве мотива, а в других видах деятельности – второстепенного. Как показали исследования многих психологов, структура и природа обучения определяются знаниями и сферой деятельности, к которой относятся соответствующие факты, понятия, навыки и умения. Запоминание арифметических правил, наряду с запоминанием грамматики, связано с методами наблюдения, умственной и практической деятельностью. Регулирование внимания приписывается внутренним факторам обучения. Невозможно идентифицировать и отбирать необходимые знания и информацию из информационного потока без участия внимания. Степень сложности учебных материалов является одним из внешних факторов, влияющих на успешность обучения. Степень сложности влияет на эффективность, скорость и точность обучения.
***Ключевые слова:*** *обучение, знания, умения, внимание, мышление*

Öyrənmə-bilik, bacarıq və vərdişlərin mənimsənilməsi, gələcəyə doğru istiqamətləndirən davamlı, məqsədəuyğun bir prosesdir. Təlimin əsas fəaliyyəti olaraq qiymətləndirilən öyrənmə müəllim tərəfindən şagirdlərə bilik və bacarıqların mənimsədilməsi prosesidir. Təlimin başlıca vəzifəsi müəllimin şagirdləri öyrətməyə çalışmasıdır. N.F.Talızina tədqiqatlarında göstərir ki, öyrənmə müəllim və şagirdin birgə ünsiyyətinin fəaliyyətinin nəticəsində həyata keçirilir. Təlim fəaliyyətində insanın qazandığı təcrübə öyrənmədir. Təlim və öyrənmə bütöv fəaliyyətinin ele mentləri olub, psixoloji xüsusiyyət və keyfiyyət kimi çıxış edir. Öyrənmə təlim fəaliyyətində mo tiv kimi, başqa fəaliyyətlərdə isə ikinci dərəcəli çıxış edir. (3, s.147)

Xarici və yerli müəlliflərin əsərlərində şagirdlərin öyrənməyə psixoloji hazırlığının inkişafı problemi ilə bağlı bir çox məsələlər tədqiq edilmişdir:

– məktəbəqədər yaşda uşağın əqli inkişafının xüsusiyyətlərinin nəzəri aspekti (P.P. Blonski, L.S. Vıqotski və başqaları);

– uşaqların öyrənməyə psixoloji hazırlığının məzmunu və sturktur aspekti (İ.V. Dubrovina);

– məktəbəqədər uşaqların öyrənməyə psixoloji hazırlığının formalaşması üçün struktur və fəaliyyət əsasları (S.L. Rubinşetin);

– uşaqların inkişaf təhsili üçün humanist əsaslar (E.N. Volkova). [2, s.397;3, s.78]

Təlimin səmərəli konsepsiyasını hazırlamaq, şagirdlərin öyrənməsinə təsir edən motivlərin inkişafı üçün bu prosesə təsir edən bütün amilləri nəzərə almaq lazımdır. Təhsilin gedişatını tənzimləmək üçün mümkün prinsiplər arasında universal və ən yaxşı hesab edilə bilən heç biri yoxdur. Bu, qismən daxili və xarici amillərin sabit olmaması ilə əlaqədardır, yəni müəyyən intervallarda bu amillərin təsir səviyyəsini nəzərdən keçirmək, yenilərinin meydana gəlməsini təhlil etmək və buna uyğun olaraq yeni konsepsiyalar hazırlamaq lazımdır. Bu, tədris prosesinin proqramlaşdırılmasında və tənzimlənməsində əsas amillərin optimal birləşməsi problemini ortaya qoyur.

Öyrənmə mövzusu faktiki məlumat və ya ümumiləşdirilmiş biliklər, anlayışlar, prinsiplər, hərəkətlər, əməliyyatlar, bacarıqlar ola bilər. Bu material növlərindən hansının əzbərləmə predmeti olması, təlimin strukturu, təlim metodları və tədris metodları həlledici dərəcədə asılıdır. Bir çox psixoloqlarının araşdırmalarının göstərdiyi kimi, öyrənmənin strukturu və təbiəti də müvafiq faktların, anlayışların, bacarıq və qa biliyyətlərin aid olduğu bilik və fəaliyyət sahəsi ilə müəyyən edilir. Hesab qaydalarının əzbərlənməsi qrammatikanı əzbərləməkdən başqa mü şahidə üsulları, əqli və əməli fəaliyyətlə bağlıdır. Ədəbiyyatın əzbərlənməsi fizikanın əzbərlənməsindən fərqli şəkildə gedir. Bütün bu spesifik nümunələr fərdi akademik fənlərin mənimsənilməsi psixologiyasına aiddir.

Şagirdin öyrənmə qabiliyyətinə təsir edən psixoloji proseslər arasında ən mühümü təfəkkürdür. Məhz təfəkkürün inkişafındakı yaddaş və diqqət zamanı müşahidə edilən çatışmazlıqlar məktəb lilərin uğursuzluğunun ümumi psixoloji səbəbidir.

Öyrənmədə müvəffəqiyyəti müəyyən edən amillər iki yerə bölünür: [4, s.]

- Daxili amillər
- Xarici amillər

Diqqətin tənzimlənməsi öyrənmənin daxili amillərinə aid edilir. İnformasiya axını içərisindən tələb edilən bilik və məlumatları müəyyənləşdirmək, seçmək diqqətin iştirakı olmadan mümkün deyildir. İnformasiyaları təhlil etmək, müəyyənləşdirmək və onlardan istifadə etmək prosesində insan şəxsiyyətinin təzahür etməsi halını psixoloqlar tənzimləmə adlandırmışlar.

Öyrənmənin tənzimlənməsi yaddasaxlanmanın məqsədindən, yaddasaxlamanın müddətindən və xarakterindən asılıdır. Şagird öz qarşısına yaddasaxlama məqsədi qoysa, təlim materialını yaxşı mənimsəmiş olar. Yaddasaxlama və öyrənmək məqsədi olmadan səmərəli yadda saxlamaq mümkün olmur. Müəllim dərs prosesində öyrənmənin həmin situasiya üçün səmərəli üsul və yollarını bilməlidir.

Diqqət təlim prosesində xüsusi rol oynayır. Tədris materiallarının mənimsənilməsi, anlaması və qavramasında diqqətin xüsusi yeri var. Ən müasir texniki avadanlıqlarla təchiz olunan sinifdə belə müəllim şagirdin diqqətini cəmləyə bilməsə, o, təlim materiallarını yaxşı mənimsədə bilməz. Müəllim şagirdin diqqətinin davamlı olmasına, fikrin yayınmamasına nəzarət etməlidir.

K.D. Uşinski diqqət haqqında fikrinə görə diqqət insanın sahib olduğu elə bir idrak prosesidir ki, şüurda olan hər bir şey mütləq buradan keçir. Ona görə də şagirdləri dərs prosesində diqqətlərini cəmləşdirməyə alışdırmaq lazımdır. (3, s.203)

Öyrənmənin daxili amillərinə duyğu və qavrayışı da aid edirlər. Müəllim dərs zamanı yeni mövzunu izah edərkən şagird tərəfindən bu duyulub qavranılmasa, mövzu yaxşı dərk olunmaz və yadda qalmaz. Müəllim dərsin yaxşı qavranılması üçün mimika və jestlərdən istifadə edə bilər.

Öyrənmənin müvəffəqiyyətini təmin edən xarici amillərə təlim materialının xüsusiyyətləri aiddir. Təlim materiallarının əsas məzmununa bunlar daxildir:

- Məlumatlar
- Anlayışlar
- Prinsiplər
- Qaydalar
- Bacarıq və vərdişlər

Məzmunun düzgün seçilməsi təlimin müvəffəqiyyəti üçün əsas şərtlərdən biridir. Təlim materialını hazırlayarkən şagirdlərin yaş və bilik səviyyələrini nəzərə almaq lazımdır.

Öyrənmənin müvəffəqiyyətini təmin edən xarici amillərdən biri də təlim materialının formasıdır. Təlim materialları müxtəlif formaya malik olub və hər bir formanın özünəməxsus dil və üslub xüsusiyyətləri vardır. Təlim materialları əyani, obrazlı, sözlü və simvolik şəkildə ola bilər. Təlimin forma və xüsusiyyətlərindən asılı olaraq öyrənmə müxtəlif cür ola bilər.

Öyrənmənin müvəffəqiyyətini təmin etmək üçün mütləq şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Təlim materialını şagirdlərə başa düşəcəkləri tərzdə izah olunmalıdır. Bu cür tələblərə riayət etdikdə təlim materiallarını şagirdlər tərəfindən müvəffəqiyyətlə öyrənilmələrinə imkan yaradır.

Bundan başqa da təlim materialının quruluş və məzmunu daha qabarıq şəkildə verilməlidir. Bu tələb təlim materialının əsas cəhətlərindən biridir. Rus psixoloqu A.A.Smirnov öz əsərlərində belə qeyd etmişdir ki, tədris material elə tərtib etmək lazımdır ki, əsas cəhətləri bir-birindən fərqlənə bilsin, onları qruplaşdırmaq, birləşdirmək və ümumiləşdirmək imkanı rahat olsun. (3, s.156-168)

Təlim materiallarının çətinlik dərəcəsi öyrənmənin müvəffəqiyyətinə təsir göstərən xarici amillərdən biridir. Çətinlik dərəcəsi öyrənmənin səmərəliliyinə, sürətinə və düzgünlüyünə təsir edir.

Öyrənmədə müvəffəqiyyət əldə etmək üçün təlimi diferensial yanaşma üzərində qurmaq tövsiyə edilir. Müasir kurikulum təlimində də diferensial yanaşmadan geniş istifadə olunur.

Dərsin istənilən mərhələsində, ev tapşırıqlarını yoxlayarkən, yeni dərsi izah edərkən, mövzunu ümumiləşdirərkən diferensial yanaşmadan istifadə olunur. Yeni material təqdim edərkən təlimdə geri qalan şagirdlərə tədris materialının başa düşülmə dərəcəsini aydınlaşdıran suallarla daha tez-tez müraciət etmək, müxtəlif didaktik materiallar vermək, dərsdə müxtəlif üsul və vasitələrdən istifadə etmək lazımdır.

Belə ki, fərdi xüsusiyyətlərindən, hazırlıq səviyyəsindən asılı olmayaraq bütün şagirdlər təlim prosesinə cəlb olunacaq və proqram materiallarını müxtəlif dərinlikdə öyrənəcəklər. Diferensial yanaşmada hər kəs öz bacarığı, imkanları səviyyəsini nümayiş etdirərək öyrənməyə davam edir. Bundan başqa da təlimdə diferensial yanaşma zamanı şagirdlərin temperament, sinir sisteminin xüsusiyyətlərinə diqqət yetirmək lazımdır.

Tədris materialının əhəmiyyətli olması onun müvəffəqiyyətlə mənimsənilməsinə gətirib çıxarır. Öyrənmədə müvəffəqiyyət əldə etmək üçün təlim materialı əhəmiyyətli olmalı, şagirdin tələb və maraqlarına cavab verməlidir. Materialın əhəmiyyətliliyi müxtəlif sahələrlə bağlı ola bilər. Əgər şagirdə verilmiş təlim materialı faydalı və əhəmiyyətli deyilsə, onun öyrənilməsi bir o qədər çətin və səmərəsiz olacaqdır.

Təlimin müvəffəqiyyətlə öyrənilməsinə səbəb olan amillərdən biri də təlimin materialının anlaşıqlı olmasıdır. Psixoloqlar müəyyən etmişlər ki, anlaşıqlılıq dərəcəsi yüksək olan materiallar daha yaxşı mənimsənilir, uzun müddət yaddan çıxmır.

Oxuyub-anlama öyrənmənin ən səmərəli yollarından biridir. Anlamadan oxumaq mümkün deyil, oxunsa belə yaddaşda qalmır. Bəzi şagirdlər sözləri düzgün və aydın tələffüz edir, amma nə oxuduqlarını soruşduqda cavab verə bilmirlər. Düzgün oxumaqlarına baxmayaraq onlar yaxşı oxucu hesab olunmur. Çünki, onlar oxuduqlarının mahiyyətinə varmır və dərk etmirlər.

Şagirdin oxuduğu təlim materialı anlaşıqlı olmalıdır. Onu oxuyarkən mürəkkəb düşünmə prosesində olmalı və oxuduqlarını təsəvvür etməli, mətnin strukturunu anlamalı və oxunan mətni ümumiləşdirmək bacarığı olmalıdır. Şagirdə anlama prosesi yarandıqda öyrənmə bir o qədər effektli və səmərəli olur. Müəllim dərs prosesi zamanı şərh etdiyi materialların şagird tərəfindən başa düşülməsinə nail olmalıdır. Bunun üçün də təlim materialının anlaşıqlı olması da önəmlidir.

Aparılmış tədqiqatlar nəticəsində bəzi şagirdlər müəllimin izahını tam başa düşməyərək, hər hansı bir məsələni həll edir və yaxud da hər hansı mətni mexaniki olaraq öyrənir ki, bu da biliyin keyfiyyətinə mənfi təsir göstərir. Bu səbəblərə görə müəllim öz şagirdlərinə izah etməlidir ki, aydın olmayan, az anlaşılan məsələlərin üstündən keçməmək lazımdır. Mütləq yaranmış hər hansı bir sualı zamanında vermək və ona cavab tapmaq lazımdır.

Bundan da başqa müəllimin üzərinə düşən vəzifələrdən biri də budur ki, o, şagirdlərdə müstəqil düşünmə bacarığını formalaşdırmalıdır. Rus yazıçısı L.N.Tolstoy əsərində fikrinə görə bilik təkcə hafizə yolu ilə deyil, həm də insanın öz fikir və düşüncələrinin gücü ilə qazanılmış olur.

Öyrənilmənin mənimsənilməsinə təsir edən amillərdən biri də materialın həcmidir. Materialın həcmi dedikdə ona daxil olan məlumatların, informasiyaların miqdarı nəzərdə tutulur. Tədris materialında yadda saxlanılacaq əsas lazımlı informasiyanın miqdarını müəyyənləşdirmək çətin deyildir. Burada verilmiş lazımi informasiyaları, rəqəmləri və s. miqdarı materialın həcmini müəyyən edir.

Əsas yadda saxlanılacaq lazımi materialın həcmini müəyyənləşdirmək çətindir. Material şagirdin təcrübəsi və biliyindən asılı olaraq hissələrə ayrılır və sistemləşdirilir. Öyrənilən materialda artıq və lazımsız informasiyalar atılır, mətnin əsas strukturu müəyyən edilir və sonda ümumiləşdirilir. Şagirdlər təlim materialını olduğu kimi deyil, düşünərək özünə uyğun olan formada öyrənir, yadda saxlayırlar. Hər bir şagird öz biliyinə və təcrübəsinə əsasən dərsi özünəməxsus şəkildə öyrənir.

Aparılmış tədqiqatlar göstərir ki, bu cəhətlərə diqqət yetirmədikdə mənalı materialların həcmi dərslik və dərs vəsaitlərində ya həddindən artıq olur, ya da ki az olur. Materialın həcminin çox və ya az olması şagirdlərin öyrənməsinə mənfi təsir göstərir. Öyrənmə materialının həcminin həddindən artıq olması, şagirdlərdə yorğunluq hissi yaradır. Bu səbəbdən şagirdlər materialı hər tərəfli öyrənə bilmirlər. Materialdakı yeni anlayış və əlaqələrin miqdarı və həcmi az olduqda mövzu şagird üçün maraqsız olur. (4, s.356)

Emosionallıq dərəcəsi də təlim materialında şagirdlər tərəfindən mənimsənilməsinə təsir edən xüsusiyyətlərdən biridir. Buraya materialların şagirdlərdə müəyyən hiss, həyəcan və emosiyalar kimi xüsusiyyətlər yaradır. Müsbət əhval-ruhiyyə yaradan material və müsbət obrazlar daha asan öyrənilir və yadda saxlanılır. Həmçinin də mənfi emosional təsir edən material və mənfi obrazlar da belə, şagirdlərin yaddaşında qalır. Dərsin nə qədər emosional, obrazlı, rollu şəkildə keçirilməsi, öyrənmə materialının yüksək səviyyədə mənimsənilməsinə kömək olacaqdır.

**Nəticə**

Öyrənmə prosesi şagirdlərin biliklər sistemini mənimsəmələrinə və həmin bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan vərdiş və bacarıqlara yiyələnmələrinə yönəlmiş məqsədyönlü idrak fəaliyyətdir. Bu prosesi optimallaşdırmağın mühüm şərtlərindən biri onu şagirdlərin psixi inkişaflarının böhran dövrlərinə görə uyğunlaşdırmaqdır. Bildiyimiz kimi, təlimin başlıca vəzifəsi müəllimin şagirdləri öyrətməyə çalışmasıdır. Təlimin müvəffəqiyyəti üç amildən asılıdır bunlar: kim öyrədir, kimi öyrədirlər və nəyi öyrədirlər.

Təlimdə müvəffəqiyyətin əldə edilməsi üçün onun məzmununun düzgün seçilməsinə xüsusi diqqət yetirilməlidir. Müəllim təlim materiallarının seçimində şagirdlərin öyrənmə səviyyəsinə uyğun materialları təyin edir və təlim metodlarını seçir. Hər bir şagird özünəməxsus xarakterə, iradəyə və idrak fəaliyyətinə malikdir. Bu səbəbdən də, pedaqoq tərəfindən hər şagird üçün fərdi yanaşma tələb edilir.

**Problemin aktuallığı.** Müasir məktəbin ən mühüm vəzifəsi pedaqogika və pedaqoji psixologiyada əsas problemlərdən biri olan təlimdə geri qalmanı aradan qaldırmaqdır. Mövzunun aktuallığı onunla bağlıdır ki, şagirdləri əhatə edən mühitin xüsusilə, müəllim, psixoloqlar və valideynlərin təlimdə geri qalma probleminə diqqət yetirməsinə baxmayaraq, öyrənmədə çətinlik çəkən şagirdlərin sayı getdikcə artır. Bundan əlavə, müasir məktəblilərin öyrənmə prosesi ilə bağlı yanlış formalaşmış fikir və münasibətləri var, bu münasibətlə əlaqədar olaraq onlar təhsil fəaliyyətlərində uğur qazanmağa çalışmırlar.

**Problemin elmi yeniliyi.** Müasir dövrdə aktuallığı ilə seçilən təlimdə öyrənmə probleminin şagirdlərin gələcək həyatı üçün əsasən də peşə seçimi mərhələsində onların dəyər oriyentasiyasına yönəlməsinin vacibliyi.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd edilən təlim fəaliyyəti zamanı öyrənmə çətinlikləri ilə bağlı aparılan araşdırmalara əsasən məqalənin əsas əhəmiyyəti təlimdə geridə qalmanın baş vermə səbəblərinin kompleks rolunun tədqiqini təşkil edir.

## Ədəbiyyat

1. Çələbiyev, N.Z. Təhsil sistemində psixoloji xidmətin elmi nəzəri əsasları / N.Z. Çələbiyev. – Bakı: 2009. – 312 s.
2. Əlixanova, G.H., Baxşəliyev, Ə.T. Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması. metodik vəsait // –Bakı: ADPU-nun nəşriyyatı, –2019, –394-398.
3. Əmrahlı, L.Ş. Yeniləşən təhsilin psixoloji problemləri / L.Ş. Əmrahlı. –Bakı: Mütərcim. –2010. –275s.
4. Габай, Т.В. Педагогическая психология / Т.В. Габай. –М: Издательский центр Академия, –2008. – 458 с.
5. Зубарева, Л.В. Профилактика и коррекция нарушений письменной речи / Л. В. Зубарева. – М., 2009. – 165 с.
6. Комаров, К.В.Методика обучения русскому языку в школе для слабослышащих детей. –М., 2005. – 70 с
7. Gjermeni, E.Xhakollari, M.Learning Styles and Motivation: Their role in academic performance // – Journal of education and social research, – 2024. –175 p.
8. Wulandari, A.Purwana D.Measurement models and predictors of student academic success: A systematic libreature Review. –2022, –148 p.

**Redaksiyaya daxil olub:** 17.04.2026